*YEVLAX*

# "NİZAMİ GƏNCƏVİ İLİ" ÇƏRÇİVƏSİNDƏ TAMAŞA NÜMAYİŞ ETDİRİLİB

**Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Azərbaycanın bütün guşələrində silsilə tədbirlər keçirilir. Yevlax Şəhər İcra Hakimiyyətinin tədbirlər planına əsasən Şəhər Mədəniyyət Mərkəzi və Mərkəzin filialı olan Şəhər Yaradıcılıq evinin təşkilatçılığı ilə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş "Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi" adlı teatrlaşdırılmış ədəbi-bədii musiqili kompozisiya nümayiş etdirilib.**





Tədbirdə Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, hüquq-mühafizə orqanlarının, təşkilatların rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Bildirilib ki, Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir. Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur.

Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Sonra, aktyorların peşakarlıqla ifa etdikləri tamaşa izləyicilərinin gurultulu alqışları ilə qarşılanıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

**Respublika.- 19 dekabr.- 2021-ci il.- S. 11.**